**Azərbaycan Respublikasının**

**Auditorlar Palatası Şurasının**

**2022-ci il 19 oktyabr tarixli 349/4**

**nömrəli qərarı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasının Auditorlar Palatası Veteranlar Şurasının

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1 Azərbaycan Respublikasının Auditorlar Palatasının (Bundan sonra "Palata" adlandırılacaq) Veteranlar Şurası (Bundan sonra "Veterenlar Şurası" adlandırılacaq) Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/4 nömrəli qərarı ilə yaradılmış və ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri və ictimai əsaslarla (ödənişsiz) fəaliyyət göstərən Palatanın qeyri struktur vahididir.

1.2. Veteranlar Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Azərbaycan Respublikasının qüvvədə olan digər qanunvericilik aktlarını, Palata Şurasının qərarlarını, Palata rəhbərliyinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Veteranlar Şurası öz fəaliyyətini qanunçuluq, şəffaflıq və kollegiallıq prinsipləri əsasında qurur.

1.4. Veteranlar Şurası öz fəaliyyətini Palatanın əməkdaşları və üzvləri ilə əlaqəli şəkildə həyata keçirir.

## 2. Veteranlar Şurasının fəaliyyət istiqamətləri

2.1. Veteranlar Şurasının fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Veteranlar Şurasının əsas məqsədi-Azərbaycan Respublikasında auditor xidmətinin dövlət tənzimlənməsinin təşkilinə, auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərinin müdafiəsinə, auditin aktual məsələlərinin və problemlərinin həllinə veteranların töhfəsini təmin etmək;

2.1.2.Palata sədrinin verdiyi tapşırıq və tövsiyələrini və Palata Şurasının qərarlarını icra etmək;

2.1.3. öz səlahiyyətləri çərçivəsində təkliflər hazırlamaq;

2.1.4. ölkədə fəaliyyət göstərən veteranlar və ziyalılar təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması barədə təkliflər hazırlamaq;

2.1.5. təqaüd yaşında olan Palatanın əməkdaşları və üzvlərinin maraqlarının müdafiə olunması istiqamətində təkliflər hazırlamaq;

2.1.6. ölkədə auditor xidmətinə ictimai etimadın gücləndirilməsi məqsədilə ictimaiyyət arasında maarifləndirici layihə və tədbirlərin həyata keçirilməsi barədə təkliflər vermək ;

2.1.7.peşəkar auditorların yaxşı tanınması, onlara inamın artması və nüfuzlarının yüksəldilməsi, onların etika normalarına və dəyərlərə uyğun fəaliyyətinin təşkili istiqamətində tədbirlərin həyata keçirilməsində iştirak etmək;

2.1.8.auditor təşkilatları ilə auditor xidməti istifadəçiləri, cəmiyyətləri və auditor xidmətlərinin inkişafında maraqlı olan digər tərəflər arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üzrə təkliflər vermək;

2.1.9.qiymət dempinqinə yol verən auditor təşkilatları və sərbəst auditorlara tətbiq edilən inzibati tənbeh tədbirlərinin təkmiləşdirilməsi üzrə təkliflər vermək;

2.1.10.maliyyə və mühasibat hesabatlılığı sektorunun nümayəndələri, sifarişçilər və digər maraqlı tərəflərə Auditorlar Palatasının işgüzar əlaqələrinin gücləndirilməsi üzrə təkliflər vermək;

2.1.11.auditor fəaliyyətinin mahiyyətinin yeni dövrün çağırışları fövqündə daha da zənginləşdirilməsi üzrə təkliflər etmək;

2.1.12.auditor xidməti sifarişçiləri ilə sistematik maarifləndirici və təşviqat işlərini aparmaq, aşağı qiymətə auditor xidmətinə meyl etmənin indiki aşkarlıq və kölgə iqtisadiyyatına qarşı kəskin mübarizə dövründə ziyanlı olduğunu onlara tövsiyə etmək;

2.1.13.auditin dəyərliliyinin sifarişçilər tərəfindən qəbul edilməsi istiqamətində ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsi üzrə təkliflər vermək;

2.1.14.müvafiq ali təhsil müəssisələri ilə fəal əməkdaşlığa nail olmaqla gənclərin auditor peşəsinə daha geniş cəlb olunmasının təmin edilməsi üzrə təkliflər vermək;

2.1.15.auditin təşviqi və maarifləndirilməsi üzrə tematiki seminar və dəyərmi masaların keçirilməsinin genişləndirilməsi üzrə təkliflər vermək;

2.1.16.auditorlarda uyğunlaşma, maraq, strateji və yenilikçi, eyni zamanda inamsız düşüncə tərzi, güclü ünsiyyət və tənqidi düşüncə bacarıqları, peşəkar mühakimə və güclü etika prinsiplərinin təşviq edilməsi üzrə təkliflər vermək;

2.1.17.auditor fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsinə dair hazırlanan layihələrin geniş ictimai müzakirəsinin keçirilməsində iştirak etmək;

2.1.18.ictimayyətdə auditor peşəsinə/fəaliyyətinə dair, o cümlədən düzgün və obyektiv təsəvvürün formalaşmasına dair maarifləndirmə işlərinin genişləndirilməsində iştirak etmək;

2.1.19.etik davranış və nizam-intizam, idarəçilik və dəyər yaratmanın əhəmiyyətliliyinə diqqət yetirməklə auditor peşəsinin nüfuzunun və ekosistemdəki vacib rolu barədə məlumatlılığın artırılması üzrə təkliflər vermək;

2.1.20.Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Müstəqillik standartları ilə birlikdə) tam tətbiqinə nail olunması üzrə maarifləndirici tədbirlərdə iştirak etmək;

2.1.21.gələcəyə hazır olan auditor peşəsinin tənzimlənməsinin, təşkilinin, idarəedilməsinin, yeni dövr və göstərilən dəyişikliklərin tələblərini nəzərə almaqla inkişaf etdirilməsi üzrə təkliflər vermək;

2.1.22.auditor xidməti istifadəçiləri arasında ictimai maraq və peşəkar məsələlər ətrafında geniş məlumatlandırma və dialoqun aparılmasında iştirak etmək;

2.1.23.gənclərin auditor fəaliyyətinə cəlb edilməsi üçün kadr hazırlığının bütün mərhələlərini əhatə edən vahid koordinasiya sisteminin və Auditorlar Palatasının nəzdində kadr hazırlığı tədris mərkəzinin yaradılması üzrə təkliflər vermək;

2.1.24.auditor xidməti infrastrukturunun təkmilləşdirilməsi üzrə təkliflər vermək;

2.1.25. Palatanın qarşısında duran strateji vəzifələrin icrasına ölkənin iqtisadi qurumlardan peşəkar mütəxəssislərin cəlb olunması üçün zəruri tədbirlərlə bağlı təkliflər vermək;

2.1.26. konkret istiqamətlər üzrə Palatanın gördüyü işlər ilə bağlı ictimai rəyin öyrənilməsi və reallaşan Palata siyasətinə ictimai dəstəyin artırılmasına dair təkliflər vermək;

2.1.27. ölkənin digər iqtisadi qurumları ilə auditin təşkili və tənzimlənməsi istiqamətində icra olunmalı layihə və tədbirlər barədə təklif vermək;

2.1.28. Palatanın beynəlxalq və xarici əməkdaşlıq sahəsində fəaliyyətini təşkil etmək məqsədi ilə icra olunmalı layihə və tədbirlər barədə təklif vermək;

2.1.29. Palatanın fəaliyyətinin təşkilində uğurlu beynəlxalq təcrübədən faydalanmasına xidmət edəcək layihə və tədbirlər barədə təklif vermək;

2.1.30. Veteranlar Şurasının qəbul etdiyi qərarlarla bağlı aidiyyatı üzrə izah vermək;

2.1.31. qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər vermək;

2.1.32. Palata üzvlərinə, həmçinin dövlət və yerli özünüidarəetmə orqanlarına, qeyri-hökumət təşkilatlarına, digər hüquqi və fiziki şəxslərə şifahi və ya yazılı, o cümlədən elektron sorğular vermək;

2.1.33. Veteranlar Şurasının fəaliyyətinə ekspert, mütəxəssis və məsləhətçilər cəlb etmək;

2.1.34. fəaliyyət istiqamətləri üzrə təhlillər və ümumiləşdirmələr aparmaq;

2.1.35. Veteranlar Şurasının fəaliyyətinin səmərəliliyinin artırılması üçün təkliflər vermək;

2.1.36. Palatanın Şurası yanında komitələr və komissiyalarla, struktur bölmələr ilə qarşılıqlı münasibətləri təmin etmək;

2.1.37. Veteranlar Şuranın fəaliyyəti ilə bağlı illik hesabat hazırlamaq və Palatanın rəsmi internet səhifəsində yerləşdirmək;

2.1.38. Məqsədləri və fəaliyyətləri barədə məlumatları KİV-də sərbəst dərc etdirmək;

2.1.39 Palata tərəfindən müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Veteranlar Şurasının fəaliyyətinin təşkili**

3.1. Veteranlar Şurasının say tərkibi 9 nəfərdən, yaş həddi 65-dən yuxarı Palatanın sabiq və indiki əməkdaşlarından, üzvlərindən ibarət olmaqla Palatanın Şurası tərəfindən müəyyənləşdirilir.

3.2. Veteranlar Şurasının üzvləri, həmçinin sədri və sədr müavini Palatanın üzvlərindən ibarət Şuranın qərarı ilə beş il müddətinə seçilir və vaxtından əvvəl vəzifələrindən azad olunurlar.

3.3. Veteranlar Şurasını üzvlərdən tərk edən olarsa, Palata Şurası özü onun tərkibinə yeni üzvlər daxil etmək hüququna malikdir. Palata Şurasının Veteranlar Şurası üzvlüyünə yeni üzvlərin daxil edilməsi barədə qərarı Palatanın növbəti Şurasında təsdiq edilməlidir.

3.4. Veteranlar Şurası üzvünün vəfat etdiyi və ya Palatanın üzvlüyünə xitam verildiyi halda, o Veteranlar Şurasının üzvlüyündən çıxarılmış hesab olunur.

3.5. Veteranlar Şurasının fəaliyyətinə sədr rəhbərlik edir. Sədrin bir müavini vardır.

3.6. Veteranlar Şurasının sədri:

3.6.1. Veteranlar Şurasının işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

3.6.2. Veteranlar Şurasını təmsil edir;

3.6.3. Veteranlar Şurasının iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və keçirilən iclaslarda sədrlik edir;

3.6.4. Veteranlar Şurasının səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün Veteranlar Şurasının iclaslarına çıxarır;

3.6.5. öz təşəbbüsü ilə, habelə Veteranlar Şurasının hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri Veteranlar Şurasının iclasında iştirak etməyə dəvət edir;

3.6.6. Veteranlar Şurasının adından çıxarılan qərarları, məktubları və Veteranlar Şurasının fəaliyyəti ilə bağlı digər sənədləri imzalayır;

3.6.7. Veteranlar Şurasının fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

3.7. Veteranlar Şurasının sədr müavini bu Əsasnamənin 3.8-ci bəndində nəzərdə tutulmuş hüquq və vəzifələri həyata keçirməklə yanaşı, Veteranlar Şurasının sədri olmadıqda onu əvəz edir.

3.8. Veteranlar Şurasının üzvləri:

3.8.1. Veteranlar Şurasının iclaslarında və digər fəaliyyətində iştirak edirlər;

3.8.2. Veteranlar Şurasının səlahiyyətlərinə aid təşkilati məsələlər barədə təkliflər verirlər;

3.8.3. Veteranlar Şurasının iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

3.8.4. Veteranlar Şurasının iclasında baxılan məsələlər ilə əlaqədar münasibət bildirirlər, rəy və təkliflər verirlər;

3.8.5. Veteranlar Şurasının səlahiyyətlərinə aid məsələlərə Veteranlar Şurasının iclasında baxılması üçün təkliflər verirlər;

3.8.6. Veteranlar Şurasının iclasında baxılan məsələlər ilə əlaqədar qərarların qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edirlər;

3.8.7. Veteranlar Şurasının qəbul etdiyi qərarla razılaşmadıqda bu barədə özlərinin əsaslandırılmış xüsusi rəyini yazılı şəkildə təqdim edirlər;

3.8.8. Veteranlar Şurasının protokolları, qərarları və digər sənədləri ilə tanış olurlar, protokola daxil edilməli qeydlər təklif edirlər;

3.8.9. icra intizamına ciddi əməl edirlər.

3.9. Veteranlar Şurasının cari fəaliyyətinin təşkili katib tərəfindən həyata keçirilir. Katibin funksiyasını yerinə yetirəcək şəxs Veteranlar Şurasının sədri tərəfindən müəyyən olunur.

3.10. Katib:

3.10.1. Veteranlar Şurasına daxil olan sənədlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirir, o cümlədən baxmaq üçün onları Veteranlar Şurasının üzvlərinə göndərir;

3.10.2. Veteranlar Şurasının üzvlərinə və Şuranın iclasına dəvət olunan digər şəxslərə Veteranlar Şurasının iclasının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı üç iş günü (növbədənkənar iclas zamanı isə azı bir iş günü) qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verir;

3.10.3. Veteranlar Şurasının iclaslarının protokolunu tərtib edir və imzalanması üçün Veteranlar Şurasının sədrinə təqdim edir;

3.10.4. Veteranlar Şurasının qərarlarının (məktublarının, digər sənədlərinin) layihələrini hazırlayır, baxılması və imzalanması üçün Veteranlar Şurasının sədrinə təqdim edir;

3.10.5. Veteranlar Şurasının qərarlarının (məktublarının, digər sənədlərinin) aidiyyəti üzrə təqdim olunmasını təmin edir;

3.10.6. Veteranlar Şurasının protokollarının və qərarlarının əsillərini saxlayır.

**4. Veteranlar Şurasının iclasının keçirilməsi qaydası**

4.1. Veteranlar Şurasının iclasları Veteranlar Şurasının müəyyən etdiyi müddətdə (lakin 6 ayda bir dəfədən az olmayaraq) keçirilir.

4.2. Veteranlar Şurasının növbədənkənar iclasları Palata sədrinin göstərişi, Palata Şurasının və ya Veteranlar Şurası üzvlərinin azı üçdə bir hissəsinin müraciəti ilə keçirilir.

4.3. Veteranlar Şurasının iclası üzvlərin ümumi sayının yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır. Səsvermə forması (açıq və ya gizli səsvermə) Veteranlar Şurası tərəfindən müəyyən edilir.

4.4. Veteranlar Şurasının iclaslarını Şuranın sədri və ya onun göstərişi ilə sədr müavini aparır. Veteranlar Şurasının sədri və onun müavini üzürlü səbəblərlə əlaqədar (məzuniyyət, ezamiyyət, xəstəlik və s.) iclasda iştirak edə bilmədikdə, Veteranlar Şurası sədrinin səlahiyyətləri sədr və ya onun müavini tərəfindən Veteranlar Şurasının digər üzvünə həvalə edilir.

4.5. Gündəliyə daxil edilmiş məsələlər barədə Veteranlar Şurasının sədri, sədr müavini, digər üzvlərindən biri və ya katib məruzə edir.

4.6. İclasa dəvət olunan şəxslər təkliflər vermək və müvafiq məsələlərə münasibət bildirmək hüququna malikdirlər.

4.7. Qərarlar iclasda iştirak edən Veteranlar Şurası üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledici sayılır.

4.8. Veteranlar Şurasının iclasının nəticəsi Veteranlar Şurasının sədri və katib tərəfindən imzalanmış iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

4.9. Veteranlar Şurasının iclas protokolunda aşağıdakılar göstərilməlidir:

4.9.1. iclasın keçirildiyi tarix və yer;

4.9.2. iclasa sədrlik edən və iştirak edən Veteranlar Şurası üzvlərinin, katibinin, dəvət edilmiş digər şəxslərin adları, soyadları və ata adları;

4.9.3. gündəliyə daxil edilmiş məsələlər;

4.9.4. müzakirə edilən məsələlər ətrafında çıxışların qısa məzmunu;

4.9.5. səsə qoyulan təkliflər, səsvermənin nəticəsi və Veteranlar Şurası tərəfindən qəbul edilmiş qərar.

**5. Veteranlar Şurasının fəaliyyətinə nəzarət**

5.1. Veteranlar Şurasının fəaliyyətinə nəzarəti Palata Şurası həyata keçirir.

5.2. Veteranlar Şurası bu Əsasnamənin 1.2-ci bəndində göstərilmiş tələblərə zidd fəaliyyət həyata keçirdikdə Palata Şurasının Qərarı əsasında Veteranlar Şurasının yenidən təşkili məsələsinə baxılır.

5.3. Palata Şurası Veteranlar Şurasının qərarlarının qanunvericiliyə və bu Əsasnaməyə uyğunluğunu bilavasitə nəzarət formasında yoxlayır, həmçinin onların hərəkət və ya hərəkətsizliyindən verilən şikayətlərə baxır.